Azərbaycan ordusu.- 2020.- 16 dekabr.- S.4.

AZƏRBAYCAN ORDUSU

# Bu zəfər Ulu Öndərin ideyalarının zəfəridi!

*Ömür payını xalqı üçün, dövləti, dövlətçiliyi üçün yaşayanlar haqqında heç vaxt keçmiş zamanda danışmaq mümkün deyil; onların ömürləri hissə-hissə, zərrə-zərrə ömürlərə paylanır. Belə dühaların bioloji yoxluğunu onların mənəvi varlığı əvəzləyir.*



Böyük tarixi şəxsiyyət, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də xalqın böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilməklə əbədiyyətə qovuşdu. Bu 17 ildə əbədiyaşar ömürün ideyaları, siyasəti yaşayıb, yaşadılıb. Həyata keçirilən böyük layihələr ölkəmizin inkişafına daha güclü təsir göstərib. Bu inkişafın təməlini ümummilli lider Heydər Əliyev qoymuşdu.

Azərbaycan tarixinin Heydər Əliyev dövrü taleyüklü məqamları, dövlətçilik uğrunda gərgin mübarizə dövlətçilik tariximizdə mərhələ oldu. Zaman etibarilə bizə çox da uzaqda olmayan həmin dövrün tarixi qiymətini, dəyərini ancaq tarixin özü ifadə edə bilər. Dövlətçilik, idarəetmə, regional siyasət, ordu quruculuğu, elm, təhsil və digər istiqamətlərdə yazılacaq mükəmməl kitablar məhz Heydər Əliyev irsindən qaynaqlanacaq, xalqımızın dövlətçilik tarixi daha dərindən öyrəniləcəkdir. Ümummilli Liderimiz tarixdə böyük siyasətçi kimi, qətiyyətli dövlət başçısı kimi, məsuliyyətli vətəndaş kimi, cəsur və tədbirli sərkərdə kimi, Vətənini və millətini hədsiz məhəbbətlə sevən bir insan kimi, çətin anlarda hər zaman xalqının yanında olmağı bacaran lider kimi yaşayacaqdır.

Ölkəmizdə dövlətin və dövlətçiliyin əsas sütununu təşkil edən güclü ordunun formalaşması və inkişafı Ulu Öndərin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ, həm də müstəqil Azərbaycanın nizami ordusunun yaranması kimi tarixi prosesdə əlamətdar rolu olub.

Hələ sovet dönəmində azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsi yolunda süni maneələr yaradıldığı bir vaxtda ulu öndər Heydər Əliyevin göstərdiyi qətiyyət hər zaman qəlbimizi qürurla dolduracaqdır. Ümummilli Liderimiz 1971-ci ilin aprelində gənclərimizin ali hərbi məktəblərə hazırlanması barədə xüsusi sərəncam imzalayır. Bununla da həmin il iyunun 20-də milli zabit kadrlarının hazırlanmasında əsas baza rolunu oynayacaq hərbi liseyin bünövrəsi qoyulur. Xalqımızın qüdrətli sərkərdələrindən biri, 1937-1938-ci illərin qırmızı terrorunun qurbanı olan Cəmşid Naxçıvanskinin adı verilir. Bu gün ordumuzun zabit heyətinin əsasını da məhz C.Naxçıvanski adına məktəbin məzunları təşkil edir. Azərbaycanda onlarla general, yüzlərlə yüksək rütbəli zabit bu hərbi liseyin yetirməsidir. Bütün bunlar ümummilli liderimizin ölkəmizin hərbi qüdrətini artırmaq sahəsindəki gərgin zəhmətinin və yüksək fədakarlığının əyani sübutudur.

XX əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin ali hərbi məktəblərdə təhsil alan azərbaycanlı gənclərin sayının artırılmasına nail olması müdrik, uzaqgörən şəxsiyyətin ölkəmizin parlaq gələcəyinə - bugünkü azad, müstəqil dövlətçiliyimizə hesablanmış uğurlu addımları idi.

Ulu öndər Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışı ilə Azərbaycanda ordu quruculuğunun Naxçıvan mərhələsi başlandı. Keçmiş sovet ordusuna məxsus hərbi texnika, silah-sursat və avadanlıqlar Naxçıvanın müdafiəsi məqsədilə saxlanıldı. Ordu quruculuğunun Naxçıvan mərhələsi könüllü müdafiə dəstələrindən nizami ordunun yaradılmasınadək inkişaf yolu keçdi. O dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin Naxçıvanın müdafiəsi haqqında bir-birinin ardınca imzaladığı qərarlar müasir ordu quruculuğu tarixinin qiymətli toplusuna çevrilib.

1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti Silahlı Qüvvələrin yaradılması barədə qərar qəbul etdi. Lakin ovaxtkı Azərbaycan rəhbərliyinin səriştəsizliyi və cəsarətsizliyindən ordu quruculuğu sahəsində heç bir uğurlu nəticəyə nail olunmadı. Düzgün siyasi xətt yürüdülmədi. Ordu quruculuğundakı ciddi nöqsanlar, buraxılan səhvlər son nəticədə 20 faiz torpaqlarımızın işğalı, bir milyona yaxın soydaşımızın qaçqın vəziyyətinə düşməsi ilə nəticələndi.

Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev 1993-cü il noyabrın 2-də televiziya ilə ölkə vətəndaşlarına müraciət etdi. Bu müraciət müstəqil Azərbaycanda ordu quruculuğunun formalaşmasında əsaslı dönüşün başlanğıcı oldu. Ölkə rəhbərinin çağırışına cavab olaraq minlərlə gənc könüllü surətdə silaha sarılıb döyüşə atıldı. Ulu Öndər 1994-cü ilin əvvəllərində cəbhəyə yola düşən əsgərlərlə görüşəndə deyirdi: "Unutmayın ki, hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durub. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, öz atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün cəbhəyə yola düşürsünüz. Sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə, ərazi bütövlüyünə kömək edəcəkdi."

O zaman Ali Baş Komandanın müraciətindən ruhlanan döyüşçülərimizin cəbhədə göstərdiyi hünər və rəşadəti sayəsində erməni hərbi birləşmələri bir çox istiqamətdə xeyli itki verərək geri çəkilməyə məcbur oldu. Ağır məğlubiyyətdən sarsılmış təcavüzkar Ermənistan 1994-cü il mayın 12-də atəşkəs haqqında Bişkek protokoluna imza atmaq məcburiyyətində qaldı. Cəbhədə atəşkəsin imzalanmasından sonra həm iqtisadiyyatımızın, həm də ordu quruculuğunun inkişafı üçün real zəmin yarandı. Qısa müddətdə Azərbaycan Ordusu vahid komandanlıqdan idarə olunan mütəşəkkil hərbi struktura çevrildi.

Dahi rəhbərin gərgin əməyi sayəsində təkcə Azərbaycanın deyil, xarici ölkələrin hərbi məktəblərində də yenicə yaranmaqda olan Azərbaycan Ordusu üçün yüzlərlə mütəxəssis - təcrübəli zabit heyəti hazırlandı. Azərbaycan Ordusunun zabitlərinin əksəriyyəti məhz ulu öndər Heydər Əliyevin qayğısı sayəsində Türkiyənin, Rusiyanın, Ukraynanın, Pakistanın, Çinin, İtaliyanın, Rumıniyanın və digər ölkələrin hərbi akademiyalarında təhsil aldı. Ulu Öndərin sərəncamı ilə Azərbaycan Ordusu üçün ali təhsilli komandirlər və qərargah zabitləri hazırlamaq məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiya yaradıldı.

Respublikamızın 1994-cü ilin mayında NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması və Şimali Atlantika İttifaqı ilə əməkdaşlığa qədəm qoyması Ümummilli Liderimizin Azərbaycan Ordusunun beynəlxalq əlaqələrini genişləndirmək yolunda atdığı ən uğurlu addımlardan biri kimi qiymətləndirilir. Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan Ordusunun tərkibində yaradılmış xüsusi taborun şəxsi heyəti beynəlxalq terrorizmə qarşı mübarizə koalisiyasının üzvü kimi 1999-cu ilin sentyabrında Türkiyə taboru ilə birlikdə Kosovoda, Əfqanıstanda və İraqda beynəlxalq sülhyaratma missiyaların həyata keçirib. Bu gün də ordumuzun sülhməramlı qüvvələri Əfqanıstanda öz missiyalarını uğurla davam etdirirlər.

Ümummilli Liderimizin 1998-ci ildə Naxçıvan Muxtar Respublikasında C.Naxçıvanski adına Hərbi Liseyin filialının açılması və 26 iyun tarixinin hər il Silahlı Qüvvələr Günü kimi qeyd edilməsi barədə imzaladığı tarixi sərəncamlar ordu quruculuğu inkişafına böyük töhfə oldu.

Dahi rəhbərin layiqli davamçısı ölkəmizin Prezidenti İlham Əliyevin Azərbaycanın tam müstəqil, suveren, inkişaf etməkdə olan dövlətə çevrilməsində əvəzsiz xidmətləri vardır.

Ulu Öndərin formalaşdırdığı ordu quruculuğu prosesi bu gün onun siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti ilə uğurla həyata keçirilir, vətənimizin tərəqqisi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi və etibarlı şəkildə qorunması, nizam-intizamlı, döyüş qabiliyyətinə malik ordumuzun daha da müasirləşdirilməsi istiqamətində mühüm işlər aparılır. Bu gün Azərbaycan Ordusu dünyanın ən müasir ordusu olan ölkələrlə rəqabət aparmaq gücündədir.

Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayacağını bildirən Ali Baş Komandan Azərbaycan Ordusu qarşısında hər an torpaqlarımızı azad etmək üçün hazır olmaq vəzifəsini qoyurdu. Vətən müharibəsində qətiyyətlə bildirdi ki, dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. “Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Ərazi bütövlüyümüz bərpa olundu. Ulu Öndərin yaşarı ideyaları qələbə çaldı...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**